# Cüdoda "medal yağışı"

Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarının başa çatmasına sayılı günlər qalıb. Bütün idman növlərində bir-birindən maraqlı idman mübarizələrinin şahidi oluruq. Növbəti yarış günündə də idmançılarımız müxtəlif idman növlərində uğurla çıxış edərək ölkəmizin hesabına medallar yazdırdılar. Sözsüz ki, daha çox diqqət mərkəzində olan və medal gözlənilən idman növlərindən biri də cüdodur. Cüdoçularımız islamiadanın ilk yarış günündə qazandıqları medallarla xalqımızı sevindirdilər. Bu nəticələrlə cüdoçularımız növbəti dəfə ölkəmizin idman şöhrətini yüksəklərdə saxlayıblar.

60 kq çəki dərəcəsində yarışan cüdoçumuz Balabəy Ağayev yarımfinalda türkmənistanlı həmkarı Hakberdi Cumayevə qalib gələrək finala vəsiqə qazanıb. Cüdoçumuz həlledici mərhələdə özbəkistanlı Kemran Nurillayev ilə üzüzə gəlib. Görüşü qalib başa vuran cüdoçumuz islamiadanın qalibi olub. Fəxri kürsünün ən yüksək pilləsinə qalxan idmançı başda Azərbaycan Cüdo Federasiyası olmaqla, bütün məşqçilərə təşəkkürünü bildirib: "Hər zaman mənə kömək ediblər. Gələcəkdə olimpiya çempionu olmağa çalışacağam. Bu medalın mənim üçün çox böyük önəmi var. Neçə vaxtdır zədəli olduğumdan əziyyət çəkirdim. Avropa çempionatında 5-ci olmuşdum. Şükürlər olsun ki, əziyyətim yerdə qalmadı".

Digər cüdoçularımızdan Nəriman Mirzəyev, Telman Vəliyev (hər ikisi 73 kq), Könül Əliyeva (48 kq) da yarımfinala vəsiqə qazanıblar.

73 kq çəkidə yarışan idmançımız Nəriman Mirzəyev yarımfinalda qırğızıstanlı idmançı Çingizxan Saqinaliyevi məğlub edib. Nəriman finalda özbəkistanlı Şaxram Axadov ilə qarşılaşmadan məğlub ayrılaraq islamiadanın gümüş medalına sahib olub.

73 kq çəki dərəcəsində yarışan digər cüdoçumuz Telman Vəliyev isə qırğızıstanlı idmançı Çingizxan Saqinaliyevə qalib gələrək bürünc medala layiq görülüb.

48 kq çəki dərəcəsində mübarizə aparan cüdoçumuz Könül Əliyeva finalda türkiyəli idmançı Tuqce Beder ilə qarşılaşıb. Rəqibinə uduzan idmançımız "Konya-2021"i gümüş medalla başa vurub.



Azərbaycan.- 2022.-16 avqust.- S.7.